**UOT 008:001.8**

**Ləman Salamova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**AZ 1065, Bakı, İnşaatçılar pr. 39**
**E-mail:**s.lyaman94@gmail.com

# S.HANTİNQTONUN KONSEPSİYASINDA SİVİLİZASİYALARIN TOQQUŞMASI İDEYASI

**Xülasə:** Bu məqalə amerika sosioloqu Samuel Hantinqtonun əsrlərində toxunulmuş sivilizasiyaların toqquşması probleminə həsr edilmişdir. Burada sivilizasiyaların toqquşmasının səbəbləri haqqında danışılır. Hantinqton sivilizasiyaların 8 tipini ayırır. Bu məqalədə toqquşmaların səbəbləri, prinsipləri, həmçinin onun cəmiyyətin bütün sferalarına və mədəniyyətə təsirinin nəticələri təsvir olunub.

**Açar sözlər:** qloballaşma, sivilizasiya, mədəniyyət, geosiyasət, inteqrasiya, ideologiya, münaqişə, inkişaf.

Modernizasiya prosesinin nəticələrindən biri də sivilizasiyaların toqquşmasıdır. Sivilizasiyaların toqquşması ideyasını S.Hantinqton özünün eyni adlı əsərində ətraflı formada təsvir etmişdir. Bu kitabda müasir cəmiyyətin sivilizasiya vəziyyəti təsvir edilir və bütün dünya sivilizasiyasının gələcək inkişafının proqnozu verilir. “Sivilizasiyaların toqquşması” kitabı XX əsrin ikinci yarısında çoxsaylı mübahisələr və müzakirələr yaratdı və böyük rezonanas doğurdu. O, müasirləşmənin və qərbləşmənin qırılmaz əlaqəsi haqqında danışır və hesab edir ki, dəyişikliklərinin erkən mərhələsi zamanı qərbləşmə müasirləşməni dəstəkləyir. Daha gec mərhələlərdə isə müasirləşmə yerli mədəniyyətin dirçəlişini stimullaşdırır. Bu iki səviyyədə olur. Sosial səviyyədə müasirləşdirmə bütovlükdə cəmiyyətin iqtisadi, hərbi və siyasi gücünü gücləndirir və bu cəmiyyətin insanlarını öz mədəniyyətinə inanmağa məcbur edir. Fərdi səviyyədə müasirləşdirmə uzaqlığ və dağılma hissini doğurur, çünki ənənəvi əlaqələr və sosial münasibətlə parçalanır ki, bu da eyniliyin böhranına aparır, bu problemlərin həllini isə din verir.

Sivilizasiyaların arasında gələcək münaqişə – müasir dünyada qlobal münaqişələrin təkamülünün sonuncu mərhələsidir.

S.Hantinqton XX əsrin 90-cı illərin əvvəllərində yaranan vəziyyəti təsvir edir. Dünya çoxqütblü, çoxsivilizasiyalı olur. Soyuq müharibə zamanı dünya “birinci”, “ikinci” və “üçüncüyə” bölünmüşdü: bir tərəfdən – ABŞ-ın başçılığ etdiyi kapitalist, inkişaf etmiş ölkələr, digər tərəfdən isə – Sovet İttifaqının başçılıq etdiyi kasıb kommunist ölkələr. Üçüncü dünyanın ölkələri isə kasıb və siyasi qeyri-stabillər və dünya siyasi fəaliyyətində iştirak etmək qabiliyyətində deyillər. Bundan başqa, bipolyar münasibətlər dövründə siyasi, ideoloji və iqtisadi fərqlər üstün olurdu. Amma sonra belə bölünmə öz mənanı itirdi[5].

90-cı illərdə prioritet mədəni, milli dəyərlərə verilir və dünyanın xəritəsində SSRİ-nin dağılmasından sonra yeni dövlətlər meydana çıxır ki, nəticədə xalqların özünü eyniləşdirməsi başlanır. Milli, etnik, mədəni əlaqələr artır, artıq dövlətlərin üç bloku deyil, yeddi və ya səkkiz müxtəlif sivilizasiya formalaşır. İndi ölkələri onların siyasi və ya iqtisadi sistemləri, iqtisadi inkişafın səviyyəsi üzrə deyil, mədəni və sivilizasiya meyarlarına əsaslanaraq qruplaşdırmaq daha çox münasibdir.

"… Nəticədə, insanlar üçün siyasi ideologiya və ya iqtisadi maraqlar əhəmiyyətli deyil. İnam, ailə, qan və düşüncələr – insanların özünü müəyyən etdikləri və uğrunda vuruşacaqları və öləcəkləridir. Buna görə də sivilizasiyaların toqquşması qlobal siyasətin əsas amili kimi soyuq müharibəni əvəz edəcək". Onun nöqteyi-nəzərindən müxtəlif sivilizasiyalar müxtəlif mədəni dəyərlər istehsal edir və onları barışdırmaq sinif və ya ideologiyaların münaqişəsindən daha çətindir. O insanların mədəni sədaqətini ibtidai, şüuraltı, qədim hesab edir. Buna görə mədəniyyətin pərdəsi xalqları soyuq müharibə dövründə mövcud olan "dəmir pərdə" ideologiyasından əhəmiyyətli dərəcədə daha çox bölür. S.Hantinqton hesab edir ki, sivilizasiya seçimi bu mədəniyyətin ənənəvi dəyərləriylə məhdudlaşır. Mədəni dəyərlər isə etnik və dini eyniliklə qırılmaz surətdə bağlıdır. [3]

"Mən güman edirəm ki, doğulan dünyada münaqişələrin əsas mənbəyi artıq ideologiya və iqtisadiyyat olmayacaq. Bəşəriyyəti bölən ən əhəmiyyətli sərhədlər və münaqişələrin əsas mənbələri mədəniyyətlə təyin ediləcəklər. Millət-dövlət beynəlxalq işlərdə əsas qüvvə olaraq qalacaq, lakin qlobal siyasətin ən əhəmiyyətli münaqişələri müxtəlif sivilizasiyalara aid olan millətlər və qruplar arasında baş verəcək. Sivilizasiyalar arasında sınıq xətləri də gələcək cəbhələrin xətləri olacaq".

Bəs sivilizasiya deyiləndə nə nəzərdə tutulur? Sivilizasiya hansısa bir mədəni mahiyyəti təşkil edir. Kəndlər, regionlar, etnik qruplar, xalqlar, dini icmalar – hamısı mədəni müxtəlifliyin müxtəlif səviyyələrini əks etdirən xüsusi mədəniyyətə malikdirlər. Cənubi İtaliyada yerləşən kənd öz mədəniyyətinə görə Şimali İtaliyada yerləşən kənddən fərqlənə bilər, amma bu halda onlar məhz italyan kəndi qalırlar, onları almanla səhv salınmayacaq. Öz növbəsində Avropa ölkələri onları Çin və ya ərəb dünyasından ayıran ümumi mədəni xüsusiyyətlərə malikdir.

Amma niyə müəllifin fikrincə sivilizasiyaların toqquşması qaçılmazdır? Birincisi, S.Hantinqtonun qeyd etdiyi kimi, sivilizasiyalar arasında fərqlər çox əhəmiyyətlidir. Sivilizasiyalar öz tarixi, dili, mədəniyyəti, ənənələri və ən əhəmiyyətlisi, dininə görə oxşar deyirlər. Müxtəlif sivilizasiyalar insanları Allah və insanın, individ və qrupun, vətəndaş və dövlətin, valideynlər və uşaqların, ər və arvadın arasında münasibətlərə müxtəlif cür baxırlar, hüquqlar və vəzifələr, azadlıq və məcburiyyət, bərabərlik və iyerarxiyanın əlaqəli əhəmiyyəti haqqında müxtəlif təsəvvürlərə malikdirlər. Bu fərqlər yüzilliklərlə formalaşır. Onlar görünən gələcəkdə yox olmayacaqlar. Onlar siyasi ideologiya və siyasi rejimlərin arasında fərqlərdən daha da fundamentaldır. Əlbəttə, fərqlər mütləq münaqişəni güman etmir, münaqişə isə mütləq zorakılığı bildirmir. Lakin yüzilliklər ərzində ən sürəkli və qanlı münaqişələr məhz sivilizasiyaların arasında fərqlərdən əmələ gəlirdi.

İkincisi, ona görə ki, "dünya daha da sıx olur" və müxtəlif sivilizasiyaların xalqlarının arasında qarşılıqlı təsir güclənir. Öz növbəsində, bu sivilizasiya şüurunun

artmasına, sivilizasiyalar arasında fərqlərin və sivilizasiya çərçivəsində ümumiliyin anlaşmasının dərinləşməsinə gətirir.

Üçüncüsü, "iqtisadi müasirləşmə" və sosial dəyişikliklər prosesləri bütün dünyada insanların yaşayış yeri ilə ənənəvi eyniləşdirməsini yuyub aparır, eyni zamanda eyniləşdirmə mənbəyi kimi millət - dövlətlər rolu zəifləyir.

Dördüncüsü, qərbin hökmranlığı dünyaya qərbli olmayan siması vermək üçün təşəbbüs, iradə, resursu kifayət gədər olan qeyri-qərb ölkələrdə "sivilizasiya şüurunun artmasına" səbəb olur.

Beşincisi, "mədəni xüsusiyyətlər və fərqlər iqtisadi və siyasidən fərqli olaraq dəyişikliklərə daha az meyillidir və bunun nəticəsində onları həll etmək və ya güzəştə gətirmək daha çətindir". Bununla belə, S.Hantinqton milli-etnik və dini amillərə böyük önəm verir: "Sinfi və ideoloji münaqişələrdə əsas sual: "Sən kimin tərəfindəsən?". İnsan kimin tərəfində olduğunu özü seçirdi və həmçinin seçilmiş mövqeləri dəyişə bilərdi.Sivilizasiyaların münaqişəsində isə sual başqa formada qoyulur: "Sən kimsən?". Bosniya, Qafqaz, Sudanın təcrübəsindən göründüyü kimi, bu suala uyğun cavab verməyən alnından güllə ilə vurulur. Din insanları etnik mənsubiyyətdən daha çox bölür. İnsan yarıfransız və yarıərəb ola bilər və hətta hər iki ölkə vətəndaşı ola bilər. Yarıkatolik və yarımüsəlman olmaq daha çox mürəkkəbbir". [3]

Nəhayət, mədəni, sivilizasiya ümumiliyi bir mədəniyyət və sivilizasiya çərçivəsində iqtisadi inteqrasiyaya, iqtisadi reqionalizmə imkan yaradır.

Onun fikirincə, müasir dünyad "qərb, konfusi, yapon, islam, hindu, pravoslav-slavyan, Latın Amerikası və afrika sivilizasiyalar mövcuddur.

S.Hantinqton qlobal səviyyəsində əsas sivilizasiyalar toqquşmasını "Qərbin və konfusi-islam dövlətlərinin arasında münaqişəsi"ni hesab edir.

Sivilizasiyaların arasında fərqlər dində və dildə son dərəcə əhəmiyyətlidir. Lakin əgər dildə "ümumi dil tapmaq" olarsa, mövcud tamamilə müxtəlif doktrinalara görə dində bunu etmək kifayət qədər çətindir. Bu gün də davam edən əsas toqquşma islamla qərb sivilizasiyası və dinin toqquşmasıdır. Hər iki sivilizasiya öz qüdrətində əmindir, onlardan hər biri öz təsir diapazonunu genişləndirməyə çalışır.[6]

"S.Hantinqton isə sivilizasiyaları dinlərlə bağladığından, sivilizasiyalararası toqquşmanı dinlər arasındakı münasibətlə izah etməyə çalışır. O, ən çox islam və xristianlıq arasındakı fərqləri önə çəkir. Xüsusən, müsəlmanların daha sürətlə artmasını rəhbər tutaraq, bir növ islam təhlükəsindən bəhs edir". [1, s.7]

S.Hantinqton iddia edirdi ki, "sivilizasiyaların toqquşmasından" qaçmağın əsas yolu çoxmədəniyyətli və siviliasiyalararası dialoq prosesinə cəlb edilmiş çoxqütblü və çoxsivilizasiyalı nizamın yaranmasıdır.

Müəllif sivilizasiyaların inkişafına Qərbin təsiri haqqında yazır. Sözsüz, Qərb başqa sivilizasiyaların inkişafına təsir edən nüfuzlu güclərdən biridir. Belə hadisəylə müasirləşmə və qərləşmə anlayışları bağlıdır. Bəzi sivilizasiyalar hər iki hadisəni rədd edirlər, başqalar isə əksinə, həm qərbləşmə, həm də müasirləşdirməni qəbul edirlər və hesab edirlər ki, "müasirləşmək üçün, qərbləşmək lazımdır". Sözsüz, qərb sivilizasiyasının digərinə təsiri reaksiya yaratdı. Kitabda üç üsul göstərilir: hər şeyin rəddi, "qerodianizm", yəni həm müasirləşdirmə, həm də qərbləşmənin qəbulu və reforizm, yəni yalnız müasirləşmənin qəbulu.

Başqa sivilizasiyaların tədricən inkişafıyla qərbin rolunun enməsi və bəzən son plana getməsi qanunauyğundur. Bu hər şeydən əvvəl onunla bağlıdır ki, qərb artıq inkişafının pikini yaşayıb və indi öz mövqeyini aşağı salmağa başlayır.

S.Hantinqton qeyd edirdi ki, müvəffəqiyyətli iqtisadi inkişaf dövlətin sərhədlərin düzgün təyin edilməsi olmadan mümkün deyil. Müəllifin fikrincə, siyasi sərhədlər mədəniylə uyğun gəlmək üçün bu gün tez-tez düzəliş edilir. Ən yaxşı iqtisadi əməkdaşlıq yalnız bütün üzvlərin bir-birinə etibarı olduğunda yaranır, etibar isə öz növbəsində dəyərlərin və mədəniyyətlərin ümumi fonunda daha asan yaranır. Mədəniyyətlərin və dinlərin ziddiyyətləri olduğu üçün müxtəlif sivilizasiyalardan ibarət olan ittifaqın yaradılması kifayət qədər çətindir. İqtisadi əməkdaşlıq üçün yaradılmış iqtisadi ittifaqlar çoxmədəniyyətli və mövcud ola bilərlər, lakin ancaq belə ittifaqlarda iqtisadi sahənin inteqrasiyası qeyri-mümkündür. Beləliklə, müəllif belə bir nəticəyə gəlir ki, "iqtisadi əməkdaşlığın əsası mədəni ümumilik olur".[3]

S.Hantinqton hesab edir ki, qərb mədəniyyətinin universallığına inam yanlışdır. Qərb sivilizasiyası universal olduğuna görə deyil, həqiqətən unikal oduğuna görə giymətlidir.Qərb xristianlığı, plüralizm, fərdi azadlıq, siyasi demokratiya, qanunun hakimliyi, insan hüquqları - hər hansı başqa sivilizasiyaya deyil, məhz qərbə məxsus əsasən fundamental dəyərlər və xarakteristikalardır.

Sivilizasiya – əxlaqın, təhsilin, incəsənətin, fəlsəfənin, texnologiyanın, maddi rifahın və s. daha yüksək səviyyələrinin mürəkkəb qarışığıdır.

S.Hantinqton öz əsərlərində sivilizasiya ziddiyyətlərinin müxtəlif növlərinin və hamı üçün qəbul edilmiş universal sivilizasiyanın yoxluğu olmadığını sübut etdi. Hər sivilizasiya unikaldır və münaqişələrin qarşısının alınması üçün onları birləşdirə biləcəklər ümumi tərəflər axtarmaq lazımdır. Qərbə digər sivilizasiyalara öz qanunlarını diktə etməyə deyil, onları dəstəkləməyə, münasibətlər qurmağa, beynəlxalq institutları bərkitməyə başlamaq lazımdır.

## **Ədəbiyyat**:

1. Manafova M., Əfəndiyeva N. Mədəniyyət tarixi və nəzəriyyəsi (ali məktəblər üçün dərslik), Bakı, Sabah nəşriyyatı, 2010, 876 s.
2. Xəlilov S., Sivilizasiyalararası dialoq, Bakı, Adiloğlu, 2009,258 s.
3. Хантингтон С., Столкновение цивилизаций, М: ООО «Издательство АСТ», 2003, 603 с.
4. https://az.wikipedia.org/wiki/Samuel_Hantinqton
5. http://newtimes.az/az/politics/3026
6. https://www.geopolitica.ru/article/stolknovenie-ili-dialog-civilizaciy

**Ляман Саламова**

**Идея «столкновения цивилизаций» в трудах американского социолога Самуэля Хантингтона**

**Резюме**

Данная статья посвящена проблеме столкновения цивилизаций, затронутой в трудах американского социолога Самуэля Хантингтона. Здесь говорится о причинах столкновения цивилизаций. Хантингтон выделил 8 типов цивилизаций. В данной статье описывается причины, принципы столкновений, а также последствия их влияния на все сферы общества, в том числе и культуру.

**Ключевые слова:** культура, цивилизация, глобализация, интеграция, развитие, геополитика, идеология, конфликт, общество.

**Lyaman Salamova**

**The problem of the clash of civilizations, touched upon in the works of American sociologist Samuel Huntington**

**Summary**

This article is devoted to the problem of the clash of civilizations raised in the writings of the American sociologist Samuel Huntington. It talks about the causes of the clash of civilizations. Huntington identified 8 types of civilizations. This article describes the causes, principles of collisions, as well as the consequences of their influence on all spheres of society, including culture.

**Keywords**: culture, civilization, globalization, integration, development, geopolitics, ideology, conflict, society.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.05.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 07.05.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 04.06.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: kulturologiya üzrə fəlsəfə doktoru, dosent Yeganə Əliyeva**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**.